# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**“Qarabağ Azərbaycandır” məqsədli qrant**
**müsabiqəsinin (AEF-MQM-QA-1-2021-4(41) qalibi**
**olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 6-cı mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İşğaldan azad olunmuş ərazilərdə davamlı turizmin təşkili istiqamətləri və iqtisadi səmərəliliyinin qiymətləndirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədov Rəşad İsmayıl oğlu**
Layihənin nömrəsi: **AEF-MQM-QA-1-2021-4(41)-8/06/2-M-06**
Müqavilənin imzalanma tarixi: **16 noyabr 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2022-ci il - 01 dekabr 2024-cü il**
*Layihənin **VI mərhələ** üzrə (rüb) məbləği: :*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Lahiyə üzrə cari rüb ərzində Qarabağ və Şərqi Zəngəzur regionunda TRZ yaradılması konseptual əsasları, metodologiyası, beynəlxalq praktikanın tətbiqinin öyrənilməsindən ibarət olmuşdur. Region üçün planlaşdırılan rekreasiya zonaları Kəlbəcər, Xocavənd, Laçın, Qubadlı, Zəngilan, Ağdam rayonlarını əhatə etmişdir. Tədqiqat regionunda ekosistemin dayanıqlığının təmin edilməsi, ekoloji və mədəni irsin qorunması və turizm məhsuluna çevrilməsindən TRZ təşkilindən ibarətdir. TRZ təşkilində ərazinin təbii və mədəni irs resurslarının reyestri, istifadə imkanlarının müəyyən olunması, turizm məhsullarının inkişaf etdilməsinə yönəldilir. TRZ formalaşmasına bir çox əhəmiyyətli faktorlar təsir edir ki, bunları da aşağıdakı kimi qruplaşdırmaq olar:<br>• Əlahiddə faktorlar – başqa bir yerdə tapılmayan, bir bölgəyə məxsus resurslar;<br>• Özünəməxsusluq faktorları – müqayisəli üstünlüyü olan tarixi-mədəni və təbii turizm resursları;<br>• İcma əsaslı faktorlar – əhalinin sahib olduğu eko-mədəni və etno-mədəni irsin və qonaqpərvərliyin turizm məhsuluna çevrilməsi imkanları; |

- Ərazi optimallaşdırma faktoru –təbii və mədəni resursların turizm məhsulu kimi istifadə olunduğu TRZ-də təbiəti mühafizə və irs nümunələri qoruması, dayanıqlığın təmin edilməsi;
- Bərabərlik faktorları – TRZ formalaşması dövlət, sahibkar, dövlət-özəl əməkdaşlığı, icmalar və digər maraqlı tərəflərin cəlb olunmasın təmin edilməsi;
- Ədalətli turizm faktoru – TRZ təşkilində icmaların iştirakının təmin olunması və böyük qayıdışın təmin olunmasında turizm sənayesinin iştirakının təmin olunması.

TRZ yaradılmasında Azərbaycan Respublikası Prezidentinin sərəncamı və Nazirlər Kabinetinin qərarları, işğaldan azad olunmuş ərazilərdə turizminin inkişafının baş planında nəzərdə tutulan tədbirlər tədqiqatın metodologiyasını təşkil edir. TRZ təşkilinin metodologiyasının əsasını resursların qiymətləndirilməsi, turizm məhsullarının təşkilində müqayisəli rəqabət üstünlüyünün təmin edilməsi və beynəlxalq trendlərin nəzərə alınmasından ibarətdir. Bu baxımdan TRZ təşkili və inkişaf etdirilməsində nəzəri-metodoloji mülahizələri aşağıdakı kimi qruplaşdırmaq olar:

-turizm resurslarının çox kriteriyalı qiymətləndirilməsi metodikası-daha çox resursların müqayisəli və reytinq qiymətləndirilməsinə əsaslanır;

-turizm məhsullarının formalaşmasında resurslardan istifadə olunması konsepsiyası-ənənəvi metodika olub, potensialın turizm məhsuluna çevrilməsi imkanlarını əhatə edir;

-turizmdə təhlükəsizlik amilləri-bölgədə TRZ yaradılmasında təhlükəsizlik konseptinin istirahətin təşkili və istirahətçi baxımından formalaşdırılmasıdır;

-turizmdə dəyər zəncirininin yaradılması-TRZ təşkilində beynəlxalq tendensiyaları nəzərə almaqla, rəqabət qabiliyyətli dəyər zəncirinin formalaşmasını əhatə edir;

-turizmdə investiyaların cəlb olunması və TRZ daxilində ixtisaslaşdırılmış klasterlərin yaradılması- TRZ daxilində iqtisadi stimulların təşkili üçün ərazilərin seçilməsi, güzəştli investiya mühitinin təşkilinə istiqamətlənir;

- davamlığın təmin olunması – TRZ təşkilində BMT davamlı inkişaf tövsiyyələrinin nəzərə alınması, ətraf mühitin qorunması, sosial ədaələtin təmin edilməsi və iqtisadi artımdan yerli icmaların yararlanmasını özündə əks etdirir.

TRZ təşkilində metodikaların təhlilində aydın olur ki, ətraf mühitin qorunması, rəqabət qabiliyyətli turizminin təşkili, kefiyyətli xidmətlərin göstərilməsi, investiyaların cəlb edilməsi, iqtisadi dəyərin yaradılmasından ibarətdir.

A.Kuskova (2005) görə TRZ təşkili daha çox təbii turizm resurslarına əsaslanır və regionlarda turizmin inkişaf etdirilməsi konsepsiyasından ibarətdir. Tarixi-mədəni turizm resursları TRZ inkişafında ikinci dərəcəli potensial olaraq səciyyələnir. A.Zıryanova (2021) görə isə rekreasiya resursları TRZ formalaşmasında baza olmaqla, təbii, ekoloji, mədəni, tarixi, arxeoloji, etnoqrafik irsi özündə birləşdirir. E.Pliceskiyə (2012) görə turizm reskreasiya kompleksləri yaratdığı əlavə dəyər makro və mikroiqtisadi, maliyyə-bank, turizm-rekreasiya təsərrüfatının formalaşması, tikinti və digər sektorlarla birgə planlaşdırmanı əhatə edir. L Majara (2008) görə turizm reskreasiya zonalarının formalaşması daha çox coğrafi məkan baxımından yanaşaraq resursların turizm

baxımından yararlılığının əsasında qiymətləndirilməsi, iqtisadi təsirlərinin digər sektorlarda əlaqəsinə üstünlük verilir. Həmçinin, TRZ-də müxtəlif klasterlərin formalaşmasında və cəlbedicilik amilləri turizm potensialı ilə birbaşa bağlıdır. V.Dərgahova və b. (2021; 2022) görə isə TRZ təşkilində təbii-ekoloji, tarixi-mədəni, eko-mədəni, etno-mədəni, sosial-iqtisadi resursların kompleks nəzərə alınması, çox kriteriyalı qiymətləndirmə əsasında müqayisəli üstünlüklərin tapılmasından ibarətdir. Digər ədəbiyyatların təhlilində destinasiyaların daxilində formalaşan TRZ və turizm klsaterlərinin ulduzvari, dairəvi və sahil modellərindən istifadə olunur ki, bu da mövcud potensialın turizm məhsuluna çevrilməsinin təmin edilməsinə əsaslanır.

İşğaldan azad olunmuş ərazilərdə aparılan bəpa işlərinin aparılan tikinti quruculuq işləri, infrastrukturun bərpası regionda iqtisadi inkişafa təkan verməklə yanaşı, turizm gələcək inkişafı üçün zəmin yaradır. Beynəlxalq miqyasda turizm trendlərinin təhlili göstərir ki, xidmət sektoru arasında yüksək inkişafı ilə seçilir. Hazırda turizm sektoru qlobal iqtisadiyyatda üstün  mövqeyin qoruyub saxlamaqla 1,9 trln dollar paya malikdir. Belə ki, son on ildə turizm sektorunda baş verən artım pandemiyaya qədər dövrdə 3,4 dəfə, postpandemiya dövründə isə bərpa prosesi 2023-cü ilin sonuna olan məlumata görə 83,7% təşkil etmişdir. Beynəlxalq Səyahət və Ekskusrsiya təşkilatının verdiyi məlumata görə 2022-ci ildə ÜDM 7,6% təşkil etmişdir ki, bu da əvvəlki ilə müqayisədə 22% artım olsada, 2019-cu ilə görə 23% az olmuşdur. Həmçinin, 2022-ci ildə turizm gəlirləri 1,9 trln. dollar təşkil etsə də, 2019-cu illə müqayisədə 14,1% az olmuşdur. Postpandemiya dövründə dünyada turistlərin səfərlərinin məqsədində təbiət amilləri, bioqidalardan istifadə üstün mövqe tutmuş,  mədəni və ənənəvi irslə bağlı turizm məhsullarına tələbat artmışdır. Beynəlxalq turist axınlarının 55 %-i istirahət, əyləncə, 28% tibbi və dini, 11% işğüzar məqsədlərlər səfərlər qeydə alınmışdır. İstirahət təyinatlı səfərlərin yarıdan çoxun təbiət və mədəni irsə yönəlməsi ərazinin rekreasiya ehtiyatlarından səmərəli istifadəni şərtləndirmiş olur.

Digər tərəfdən turizm xidmətləri ixracının sahələr üzrə dinamikası gösərir ki, sağlamlıq və istirahət məqsədli şəxsi səyahətlər artım müşahidə edilir ki, bununda əsas hissəsi ənənəvi istirahət yerlərinə yönəldilsə də, onların tətbiq etdiyi innovasiyalar, "yaşıl" xidmət və bioqidaların təqdim edilməsi ilə cəlbediciliyi təmin etmişdir. Buna görə də, beynəlxalq turizm trendlərində ekoloji, açıq hava, sağlamlıq, mədəni, etno-mədəni turizm trendləri yüksəlmişdir ki, bu da turizm tələbində postpandemiya dövründən sonra baş verən dəyişiklikləri özündə əks etdirir.

Azərbaycanda 2020-ci ilə qədər turizm sənayesində dinamik artım müşahidə edilsə də, pandemiya dövründə 4,3 dəfə azalmışdır. 2023-cü ildə ölkədə gəlmə turizm 2,1 mln nəfər təşkil etmişdir ki, bu rəqəm 2019-cu ildə 3,8 mln nəfər təşkil etmiş, turizm gəlirləri isə 1,4 mlrd dollar, 2019-cu ildə 2,8 mlrd dollar olmuşdur. Həmçinin ÜDM-də turizmin payı 2019-cu ildə 4,8% olduğu halda, 2023-cü ildə 1,2%-ə düşmüşdür.

DSK 2023-cü il üzrə verdiyi məlumata görə Azərbaycana səyahət edənlərin 41%-i əyləncə və istirahət (dünya üzrə 55%), 30% işgüzar (dünya üzrə 11%), 25% qohumlar və dostların ziyarəti (dünya üzrə 7,2%), 2% müalicə-sağlamlıq (dünya üzrə 18%) təşkil etmişdir. Həçminin, turistlərin ölkədə qalma müddəti 3-5 gün təşkil edir ki, bu da dünya üzrə orta göstərici 6-7 gün təşkil edir. Statistik rəqəmlərin təhlilindən aydın olur ki, ölkəyə gələn turistlərin əsas hissəsi işğüzar və qohum, dostların ziyarətindən ibarətdir ki, bu da turizm sənayesi subyektlərinin gəlirlərinə əhəmiyyətli təsir göstərməmişdir. Bunun nəticəsi olaraq ölkədə turizm sənayesində

iqtisadi inkişafı təmin etməmişdir.

Onu da qeyd edək ki, 2019-cu ildə göstərilən turizm xidmətlərinin 78,2%-i şəxsi səyahətlərin, 19,9%-i biznes səyahətlərinin, 1,8%-i təhsil xidmətlərinin ixracının payına düşür. 2020-ci ildə ölkədə turizm xidmətlərinin həcmi 1,48 mlrd dollar azalmışdır. Postpandemiya dövründə bərpa prosesləri sürətli olsa da, 2023-cü ildə bərpa 2019-cu il ilə müqayisədə 62,6% təşkil etmişdir. Postpandemiya dövründə turizm sənayesində müsbət tendensiya əldə olunsa da, quru yolların bağlı qalması, hava nəqliyyatında qiymətlərin yüksək olması, qonşu rəqib ölkələrə müqayisədə paket və fərdi daşımaların yüksəkliyi, hədəf ölkələrə istiqamətlənən təkliflərin azlığı, hava əlaqələrinin zəif təşkili ilə birbaşa bağlıdır.

Azərbaycanda turizm sənayesinin inkişafında təkan verəcək əsas istiqamətlərdən biri də işğaldan azad olunmuş ərazilərdə zəngin turizm potensialından istifadə edilməsindən ibarətdir. Regionda turizmin müxtəlif növlərinin inkişafı üçün əlaverişli şərait olsa da, turizmin mikroiqtisadi təsirlərdə payı aşağı olaraq qalır. Belə ki, regionlar üzrə əhalinin gəlirinin formalaşmasında turizm sənayesinin payı 4,05% təşkil edir.

İşğaldan azad edilmiş regionlarda turizmin inkişafı üçün əsas indiqatorlar təbii və mədəni irs resursları ilə yanaşı, infrastrukturun bərpası və təhlükəsizlik amillərinin təmin edilməsindən ibarətdir. Buna görə də azad edən ərazilərdə digər təsərrüfat sahələri ilə birlikdə turizm resurslarının qiymətləndirilməsi və istifadə perspektivlərinin müəyyən edilməsinə üstünlük verilir. Buna görə işğaldan azad olunmuş regionlarda turizm resurslarının qiymətləndirilməsində əsas üstünlük reytinq, müqayisəli, inforafik qiymətlədirmə və çox kriteriyalı analizə əsasında hər bir resursun yayıldığı ərazilərin müqayisəli üstünlüyü təmin edilmişdir. Çox kriteriyalı qiymətləndirmədə mövcud təbii və mədəni irs nümunələri əsas götürülərək, analiz əsasında bal sistemi tətbiq etməklə müəyyən edilmişdir.

Postkonfilikt ərazilərində resursların cəlbedici xüsusiyyətləri eko-mədəni, ekoloji, eko-sağlamlıq, qış və dağ-idman, eko-aqroturizm üçün daha əlverişli hesab edilir. Regionda eko-mədəni irsin cəlbedici ərazilərinə Tuğ, Tağlar, Azıx, Şuşa şəhəri, Vəng, Şahbulaq və s. ərazilərdə tarixi-mədəni irs, həmçinin təbii, ekoloji irsin zənginliyi ilə müəyyən edilir. Qeyd olunan irs nümunələrindən birgə istifadə etməklə eko-mədəni və etno-mədəni turizm mərkəzlərinin formalaşdırılması mümkündür.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında TRZ təşkilində cədvəldə qeyd olunan mərhələlərin tətbiqi cəlbedici turizm növlərinin seçilməsinə, klasterlərin formalaşmasına, menecmentin təşkilinə, əlverişli investiya mühitinin yaradılmasına imkan verir. Tədqiqat regionunda 16 TRZ zonasının yaradılması DTA tərəfindən təklif olunur. Belə ki, Kəlbəcər rayonunda İstisu, Soltan Heydər, Zülfüqarlı, Dəmirçidam, Xocavənd rayonunda Tuğ, Hadrut, Ağbulaq, Böyük Tağlar, Zəngilan rayonunda Qaragöl, Mincivan, Laçın rayonunda Aşağı Fərcan, Zəngilan, Qubadlı rayonunda Bərgüşad, Ağdərə rayonunda Vəng, Cəbrayıl rayonunda Cəbrayıl şəhəri, Xudafərin qəsəbəsində TRZ formalaşmalaşdırılması nəzərdə tutulur. Onu da qeyd edək ki, Ağdərə rayonun Suqovuşan, Ağdamın Şelli kəndi, Şahbulaq qalası ətrafında, Şuşa raonun Turşsu qəsəbəsi, Laçın rayonun Minkənd və ətraf ərazilərin daxil olduğu TRZ təşkilində mümkündür ki, bu da cəlbedici turizm-rekreasiya potensialın mövcud olması ilə bağlıdır.

TRZ formalaşması təbii-ekoloji, antropogen-mədəni irs amillərin özündə birləşdirir ki, bu da mövcud

resurslardan kompleks istifadənin təmin edir. TRZ regional, destinasiya və klsaterlər üzrə formalaşa bilir. Belə Ərazi Rekreasiya Kompleksləri şəhər, kənd və s. TRZ formalaşmasın təmin edir. Buna görə də TRZ turizmin inkişafında təbii, ekoloji, balneoloji, mədəni, tarixi, arxeoloji irsinin müəyyən bir ərazi daxilində müqayisəli üstünlüyünü müəyyən etməyə imkan verir. Bu baxımdan TRZ-lərin cəlbedici amillərin, rəqabət qabiliyyətli turizm növlərinin müəyyən edilməsində klasterlərin formalaşmasın tələb edir.

TRZ-lərin turizm növləri üzrə ixtisaslaşma sahələrin onların turizm resursları ilə təmin olunmasından asılıdır. Bu baxımdan Kəlbəcərdə İstisu, Zülfüqarlı, Laçın rayonunda Minkənd, Şuşa rayonun Turşsu TRZ-lər əsasən sağlamlıq, termal və fitoturizm üzrə ixtisaslaşması termal mənbələr, mikroiqlim əlverişli olması, dağ-iqlim kurortunun təşkilinə imkan verməsidir. Bununla yanaşı, Kəlbəcər rayonunda Soltan Heydər, Dəmirçidam TRZ-lərinin qış, dağ-idman, ekoloji turizm, Vəng (Ağdərə), Tuğ, Ağbulaq, Hadrut və Böyük Tağlar (Xocavənd), Şahbulaq (Ağdam) mədəni və istirahət turizmi, Qaragöl (Zəngilan), Aşağı Fərcan (Laçın), Bərgüşad (Qubadlı) istirahət, ekoloji turizm mərkəzləri kimi daha çox rəqabət qabiliyyətli turizm mərkəzinə çevrilə bilər.

Qeyd olunan TRZ daxilində turizm klasterlərinin formalaşması mövcud resurslardan daha səmərəli istifadə olunmasını təmin etməklə yanaşı, cəlbedici amillərinin artırılmasına şərait yaradardı. Bu baxımdan turizm klsaterlərinin formalaşdırılması bir çox iqtisadi, sosial, hüquqi amillərdən asılıdır. Həmçinin, resursların yayılması, təminat səviyyəsi, rəqabət qabiliyyətli turizmin formalaşmasında tətbiqi mümkündür.

TRZ-də turizm klasterlərinin yaradılmasının üç mərhələli həll variantından ibarət olması xüsusilə qeyd olunmalıdır. Birinci mərhələdə resursların qiymətləndilməsi, cəlbedici amillərinin müəyyən edilməsindən ibarətdir. Burda resursların turizm baxımından istifadə imkanları, yarararlılıq dərəcəsi, tətbiq olunan turizm növləri ilə birgə istifadə olunması imkanları ilə müəyyən edilir.

İkinci mərhələdə torpaqların mülkiyyət forması, dayanıqlılıq və təhlükəsizlik amilləri, azad investiya və kapital mühiti, planlaşdırma və dövlət nəzarəti, biznesə dövlət qarantı, mal və xidmətlərin lisenziyalaşdırlması və rezidentlərin qeydiyyatı, yerli idarəetmə orqanları, bələdiyyələr və icmaların iştirakının təmin olunmasından ibarətdir. Klasterlərin formalaşdırılması və rəqabət qabiliyyətinin müəyyən edilməsinə imkan verir. Buna görə də tədqiqat regionunda təklif olunan TRZ dayanıqlılıq amillərin nəzərə almaqla turizm fəaliyyətlərinin təşkili mümkündür. Burada hüquqi aspektlər, mal və xidmətlərin lisenziyalaşdırılması və rezidentlərin qeydiyyatı maraqlı tərəf kimi dövlət orqanlarının üzərinə düşür. İşğaldan azad olunmuş ərazilərdə tətbiq olunan rezidentlərin qeydiyyatı, iqtisadi və maliyyə güzəştlərinin tətbiqi TRZ üçün də keçərlidir.

Beynəlxalq təcrübədə yerli idarəetmə orqanları ilə əməkdaşlıq daha çox mövcud resurslardan istifadə olunmasında tənzimlənmə, icmalarla əməkdaşlıq, icazələrin alınması ilə bağlıdır. Palanlaşdırma və dövlət nəzarətinin tətbiqi TRZ planlı şəkildə inkişafının təmin edilməsinə şərait yaradır. Qarabağ və Şərqi Zəngəzur regionunda TRZ-lərin dövlət tərəfindən planlaşdırılması və rezidentlərin seçilməsində iştirakı idarəetmənin təşkili üçün əlverişli hesab edilir.

Üçüncü mərhələdə əsas və turizm infrastruktur sahələrin yaradılması, maliyyə-investiya cəlbedici amillərinin artırılması, informasiya təminatı, marketinq və reklam xidmətlərinin təşkili ilə bağlıdır. Tədqiqat regionunda cəlbedici maliyyə-investiya imkanları ilk növbədə rəqabət qabiliyyətli turizm növlərinin inkişafına

| | |
|---|---|
| | yönəlməlidir. TRZ ixtisaslaşmasın nəzərə alaraq turizm klasterlərinin formalaşması, beynəlxalq trendləri nəzərə almaqla təşkili mümkündür. Belə ki, TRZ-də planlaşdırılan turizm növlərindən sağlamlıq turizm beynəlxalq turizmdə yeri 12-14%, Azərbaycanda isə ümumi turist axınlarının 2% təşkil edir. Həmçinin, termal turizmin sağlamlıq sektorunda payının az olması, Kəlbəcər, Laçında planlaşdırılan sağlamlıq turizminin bir sahə üzrə deyil kompleks sağlamlıq xidmətlərinin göstərilməsin tələb edir. Buna görə də, İstisu, Zülfüqarlı, Minkənd və Turşsuda planlaşdırılan turizm sağlamlıq mərkəzləri termal turizmlə yanaşı, fitomüalicə, SPA-Welles, kliniki turizm xidmətləri təqdim olunması onların rəqabət imkanların artırmış olardı. Qeyd olunan amillər TRZ-də digər turizm növləri inkişafı üçündə keçərli sayılır.<br>Sağlamlıq və tibbi turizmin inkişafında beynəlxalq trendləri nəzərə almaqla yeni istiqamətlərin müəyyən edilməsinə əsaslana bilər ki, bu da eko-sağlamlıq, tibbi, fitosağlamlıq xidmətlərin əhatə etməlidir. Postkonfilikt regionlarında sağlamlıq turizminin inkişafında cəlbedici amillər tək resurslarla bağlı deyildir, burada infrastruktur, marketinq və idarəetmə indiqatorları da mühüm rola malikdir. Regionda cəlbedici amillərin üstün olması, Kəlbəcər (İsti su, Zülfüqarlı), Laçın (Minkənd) və Şuşa (Turşsu) rayonlarında təşkil olunacaq TRZ-in ixtisaslaşamasında termal, sağlamlıq və tibbi turizm imkanlarınında yararlanması planlaşdırılır. Bu baxımdan TRZ rəqabət qabiliyyətinin artırılması üçün ixtisaslaşma sahəsində uyğunluğun təmin olunması, ölkə daxili və beynəlxalq trendlərin nəzərə alınması vacibdir.<br>TRZ daxilində Ekoturizmin inkişafı cəlbedici amilləri təbii və mədəni irsin cəmlənməsi və açıq hava turizm fəaliyyətləri üçün əlverişli şəraitin olması ilə müəyyənləşdirilir. Regionda ekoturizmin mərkəzlərinin formalaşmasında TRZ əsas rola malikdir və onların əsas ixtisaslaşma sahəsin müəyyən edir. İxtisaslaşmış ekoturizmin inkişafı dörd mərhələ üzrə əsaslandırlır ki, bu da mövcud potensialın qiymətləndirilməsi, infrastrukturun bərpası, menecmenti, biznes planın hazırlanması və ekoturizmdə sahibkarlığın formalaşması ilə müəyyən edilir.<br>Tədqiqat regionunda investiyanın əsas hissəsin dövlət tərəfindən yönəldilsə də, özəl investiyaların cəlb olunmasında mövcud güzəştlərdən yararlanmaq olar. Bu baxımdan dövlət-özəl əməkdaşlığı çərçivəsində biznesin inkişafının stimullaşdırılması, biznes sturukturlarının bank xidmətlərinə əlçatanlığın təmin edilməsi, KOB-ların inkişafına dəstəyin verilməsi ilə mükündür. TRZ-də marketinq-informasiya xidmətlərinin təşkilində həm mobil applicationların, həm də SEO marketinqin tətbiqi daha effektiv sayılır. Bununla yanaşı, slayd və linklərin, onlayn məlumat sisteminin hazırlanması və cəlbedici amillərin qabardılması daha effektiv sayılır. Burda formalaşan turizm klasterlərində veb-saytların inkişafı, sosial media ilə qarşılıqlı əlaqə, rəqəmsal tərəfdaşlıq, onlayn tədbirlər, beynəlxalq aqriqatorlardan geniş istifadə olunması bu sahə də inkişafı təmin etmiş olardı. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>İşğaldan azad olunmuş ərazilərdə davamlı turizmin inkişafında TRZ təşkili və fəaliyyət istiqamətlərinin planlaşdırılması üzrə yerinə yetirilən tədqiqat işi 25% təşkil edir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında TRZ-lərin formalaşması turizm-rekreasiya resurslarından |

| | |
|---|---|
| | səmərəli istifadə edilməsini təmin etməyə imkan verəcəkdir. TRZ-in ixtisaslaşma sahələri onların beynəlxalq rəqabət imkanlarından və turizm-rekreasiya potensialından səmərəli istifadə edilməsindən asılıdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında təklif edilən turizmin inkişafında aşağıdakı nəticələri qeyd etmək olar:<br>-Turizm resurslarından səmərəli istifadə olunması baxımından nəticələrin alınması. Regionda rekreasiya-turizm resurslarından səmərəli istifadə etməklə sağlamlıq, eko-sağlamlıq (Kəlbəcər, Laçın və Şuşa), ekoloji və açıq hava turizm (Kəlbəcər, Laçın, Xocavənd, Zəngilan və Qubadlı), qış və dağ idman turizmi (Kəlbəcər, Laçın) istirahət-sağlamlıq (Kəlbəcər, Laçın, Qubadlı, Xocavənd, Zəngilan, Ağdam və Ağdərə) eko-mədəni və etno-mədəni (Şuşa, Xocavənd, Ağdam və Ağdərə), eko-aqroturizm (Xocavənd, Kəlbəcər), işgüzar və tədbir turizmi (Şuşa, Zəngilan, Ağdam) inkişaf etdirmək mümkündür.<br>- TRZ-in ixtisaslaşması və klasterlərin yaradılmasında turizm sənayesində beynəlxalq trendlərin nəzərə almaqla rəqabət qabiliyyətli turizm növlərinin təşkilini tələb edir ki, bu da regionun turizm resurslarından səmərəli istifadə edilməsinə şərait yaradacaqdır. Bu baxımdan, beynəlxalq turizmdə əsas trendlərdən sayılan istirahət-sağlamlıq, ekoloji və eko-mədəni, etno-mədəni, tədbir-MİEC turizm növlərinin inkişaf etdirilməsi turizm bazarında rəqabətliliyi təmin edəcəkdir.<br>-TRZ-in təşkilində yerli idarəetmə orqanlarının və icmaların iştirakının təmin edilməsi onların məşğulluğunun artırılmasına, kiçik və orta biznesin inkişafına və əlavə dəyər yaradılmasına imkan verəcəkdir. İcma əsaslı turizmin inkişafında eko-aqroturizm ilə yanaşı, digər turizm mərkəzlərinin tərkibində icma və kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin təmin edilməsi onların əlavə dəyər yaratmasına səbəb olacaqdır.<br>- TRZ təşkili mərkəzləşdirilmiş idarəetmənin təşkilinə, əvvəlcədən planlaşdırma və rezidentlər üçün əlavə imkanların yaradılması, turizmdə təhlükəsizliyin təmin edilməsi və ətraf mühitin qorunmasına, resurslardan səmərəli istifadəyə, investiyaların cəlb olunması və səmərəliliyinin artırılmasına, yerli əhalinin əlavə məşğulluğuna, icmaların əlavə gəlir əldə etməsinə imkan verəcəkdir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Tədqiqat işinin bu mərhələsində çöl-tədqiqat, kameral, müqayisə, statistik, emprik üsullardan istifadə olunmuşdur. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>1. V.S. Dargahov, S.A. Talibov, Q.V. Mammadov, R.İ. Ahmadov. TRZ organization directions and perspectives in Karabakh and Eastern Zangezur economic regions.<br>Məqalə hazırlanaraq WoS daxil olan REVISTA UNIVERSIDAD Y SOCIEDAD jurnalı<br>ISSN 2218-3620 (jurnalı istinad indikatoru 2022-0,08) təqdim olunmuş və çapa qəbul edilmişdir. |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>Əsas səmərələşdirici təklif TRZ davamlı turizmin inkişafında təbii və ekoloji, mədəni və etno-mədəni irsin birgə istifadə olunmasının istiqamətləri göstərilmişdir. |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |

| | |
|---|---|
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Dövlət Turizm Agentliyinin Qarabağ və Şərqi Zəngəzur regionunda TRZ planlaşdırlmasında iştirak |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>DTA, ETSN və Qarabağ regional idarəsi ilə elmi əlaqələr təmin edilmişdir |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>Yoxdur |

**Layihə rəhbərinin imzası ____________________Əhmədov Rəşad İsmayıl oğlu**

**Tarix** _____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.